**UOT 32**

**Gülgün Quliyeva**
*s.e.ü.f.d.,*
*BDU*

# MÜASİR GEOSİYASİ SİSTEMDƏ GÜC FAKTORU: ELMİ-SİYASİ TƏHLİL *

Soyuq müharibənin başa çatması və dünya sosializm sisteminin süqutundan sonra formalaşmaqda olan dünya nizamında və geosiyasi sistemdə güc amili daha çox başqalarına nəzarət etmək, onlara müəyyən işləri gördürmək və ya nədənsə çəkindirmək qabiliyyəti kimi mənalandırılır. Güc müasir beynəlxalq münasibətlərdə daha güclü dövlət tərəfindən digər dövlətlərin fəaliyyətinə nəzarət etmək qabiliyyəti kimi müəyyən olunur. İkiqütblü dünya qaydasının süqutundan sonra Amerika politoloqu Z.Bjezinskinin dediyi kimi, bir müddət ABŞ belə güc rolunda çıxış etsə də, tezliklə belə vəziyyətin alternativi rolunda Rusiya görünməyə başladı (2, s. 213-214) ki, əslində, bununla da ABŞ-ın dominantlığı yenidən ikiqütblülüyə doğru meyillənməyə başladı.

Beynəlxalq münasibətlər nəzəriyyəsi ilə bağlı tədqiqatlarda belə hesab olunur ki, dövlətin təbii sərvətləri, geniş ərazisi, işçi qüvvəsi, hərbi qüvvələri onun gücünün əsasını təşkil edir. Lakin bu amillərin real gücə çevrilməsi onlar vasitəsilə bu və ya digər dövlətin başqa dövlətlərin fəaliyyətinə təsir edə bilməsindən asılıdır. Belə ki, 1931-cı ildə Çinin böyük ərazisi, ən çox əhalisi və böyük ordusu var idi, lakin o, güclü dövlət deyildi, buna görə də kiçik Yaponiya tərəfindən Mancuriya asanlıqla işğal edilmişdi (3, 86). Siyasi münasibətlər digər münasibətlərlə sıx bağlı olduğuna görə güc yalnız siyasi faktor kimi çıxış etmir. Lakin dövlətlər digər dövlətlərin fəaliyyətinə təsir yaxud onlara nəzarət edə biləndə, güc siyasi xarakter daşıyır və buna görə də beynəlxalq siyasətin hadisəsinə çevrilir. Bu baxımdan pulun bazar münasibətləri şəraitində oynadığı rolu güc beynəlxalq siyasət sahəsində oynayır. İnsanlar onlara lazım olan məhsulları almaq üçün və ya yatırım üçün pul əldə etməyə çalışırlar. Bu kateqoriyalı insanlar kimi bəzi dövlətlər də gücü vasitə yox, məqsəd hesab edirlər (13, s. 311).

Müasir politoloji fikir gücün elementlərini üç qrupa bölür: təbii, sosial və ideoloji. Geosiyasi faktor kimi gücün təbii qrupuna ölkənin coğrafi yerləşməsi, təbii sərvətləri və əhalisi daxildir. Gücün sosial qrupuna iqtisadi inkişaf səviyyəsi, siyasi struktur və milli mənəviyyat daxildir. Gücün ideoloji qrupu isə idealları, elmin inkişaf səviyyəsi və dövlət başçılarının müdrikliyi və s. bu kimi amilləri əhatə edir. Bəzən gücün elementləri onun determinantları kimi də qələmə verilir, bununla belə nəzərə alınmalıdır ki, gücün elementləri onu müəyyən etmir, bu elementlər gücün yalnız əldə olunmasına və artmasına xidmət edir (7, s. 26-27).

Dövlətin güclü və ya zəif olması bu elementlərin bacarıqla tətbiq edilməsindən asılıdır. Gücün hər bir elementi dövlətin inkişafında müəyyən rol oynayaraq bir-birinə təsir göstərir. Geosiyasətçilərin fikrincə, coğrafiya dövlətin gücünün əsas elementidir, mühüm coğrafi faktorların sırasında ölkənin miqyası, onun iqlimi, topoqrafiyası və yerləşdiyi ərazi durur. Dövlətin miqyası onun gücünə iki yolla təsir edir: birincisi, dövlət böyük əraziyə və münbit təbii sərvətlərə nəzarət edir. Bu, böyük ərazidə əkinəyararlı torpağın, müxtəlif çeşiddə və miqdarda xammalın və çoxlu sayda əhalinin yaşaması üçün şərait yaradır: ikincisi, böyük ərazi dövlətə hərbi üstünlüyün müxtəlif növünü verməklə onu gücləndirir (17, s. 51-52). Almaniyanın görkəmli dövlət xadimi və diplomatı O.Bismark məhz bu amildən çıxış edərək bildirmişdi ki,

* Məqalə professor Zeynal Həsənalıyev tərəfindən çapa məsləhət görülüb.

nəhəng ərazi məkanına malik Rusiyaya hücum etməklə ona qalib gəlmək istəyən dövlət özü üçün dəhşətli gələcək qazanır (1, 303-304). Tarix onun dediklərini iki dəfə həqiqətə çevirmişdi.

Qeyd edək ki, dövlətin ərazisinin böyüklüyü düşmənin hücumundan qorunmaq üçün hücuma məruz qalan dövlətin hərbi qüvvələrini həlledici döyüşə qədər qorumaq üçün onları ölkənin işğal olunmayan ərazisinə çəkilməyə imkan verir. Belə ki, Rusiyanın ərazisinin böyüklüyü I Napoleon və alman-faşist ordularının darmadağın edilməsində böyük rol oynamışdır. Digər coğrafi faktorların (iqlim, topoqrafiya və ölkənin yerləşdiyi ərazi) da dövlətin gücünə böyük təsiri vardır. Bu, bir tərəfdən onu sürətli məğlubiyyətdən qurtarır, digər tərəfdən isə ona qücünü səfərbər etməyə imkan verir.

Geosiyasi gücün təbii qrupuna daxil olan digər bir faktor ölkənin təbii sərvətləridir. Dövlətin gücünə ən çox təsir göstərən təbii sərvətlərdən nefti, dəmiri, kömürü, alüminiumu və s. göstərmək olar. Lakin bu və ya digər dövlətdə təbii sərvətlərin olması onun güclü dövlət olmasını sübut etmir. Bunun üçün bu dövlət təbii sərvətlərinə nəzarət etməlidir. Tarix boyu güclü dövlətlər zəngin təbii sərvətlərə malik olan, lakin sosial-iqtisadi və hərbi-strateji baxımdan zəif olan dövlətlərin təbii sərvətlərini mənimsəyərək onları özlərindən asılı vəziyyətə salmağa çalışmış və əsasən buna müvəffəq olmuşlar.

Müasir elmi-siyasi fikir dövlətin geosiyasi gücünün təbii qrupuna daxil olan mühüm faktorlardan birinin də əhali olduğunu etiraf etmişdir. Əhalinin rolu ilk növbədə iqtisadi inkişafı və ordunu insan qüvvəsi ilə təmin etməkdədir. Lakin əhalinin çoxluğu özü-özlüyündə dövlətin gücünə hərbi qüvvələrin, yaxud yüksək iqtisadi inkişafın olmasına zəmanət vermir. Bunun üçün dövlətin sənayesi, o cümlədən hərbi sənayesi yüksək inkişaf səviyyəsində olmalıdır. Məlum olduğu kimi, Almaniyanın hər iki Dünya müharibəsi ərəfəsindəki gücü əks cəbhədə olanların gücündən dəfələrlə çox olmuşdu (17, s. 101).

Dövlətin geosiyasi gücünün ölkənin iqtisadi inkişafından asılı olması şübhəsizdir, belə inkişafın əsasını təşkil edən sənayeləşməyə, (xüsusilə hərbi sənaye) öz növbəsində şəhərlərin inkişafı, təhsilin yayılması, coğrafi və sosial mobillik, elmi-texniki tərəqqi, sekulyarizm kimi faktorlar təsir göstərir. Beynəlxalq münasibətlər sahəsində dövlətin nüfuzunun artmasına xarici siyasət mühüm təsir göstərir, çünki dövlətin beynəlxalq münasibətləri onun xarici siyasəti vasitəsilə həyata keçirilir. Xarici siyasət ölkənin daxilindəki hakimiyyət dəyişmələrindən asılı olmamalıdır. Beynəlxalq situasiyadan asılı olaraq o dəyişə bilər. Xarici siyasətin səmərəliliyinə dövlətin siyasi strukturu təsir göstərir. Tarixən digər dövlətlərin fəaliyyətlərinə hakimiyyətin, siyasi strukturun istər demokratik, istərsə də avtoritar formaları səmərəli təsir göstərmişdir. Beləliklə, dövlətin siyasi strukturunun xarakteri onun beynəlxalq aləmdə nüfuzunun artmasına xarici siyasət vasitəsilə təsir göstərir (15, s. 91-92).

Məlum olduğu kimi, hər hansı dövlətin gücünün ideoloji qrupuna daxil olan faktorların sırasında ideyaları, insanların intellektual fəaliyyətini, siyasi və hərbi rəhbərliyin idarəetmə keyfiyyətini, səriştəsini göstərmək olar. Dövlət ideyaları təbliğat yolu ilə əhaliyə aşılayaraq onların dəstəyini qazanır. Beynəlxalq aləmdə bu işin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Nəticədə, dövlət digər dövlətlərə təsir etməklə yanaşı, beynəlxalq ictimaiyyətdən özünün xarici siyasətinə dəstək alır. İnsanların intellektual fəaliyyətinin nəticəsində əldə olunan biliklər onların müxtəlif sahələrdəki, o cümlədən xarici siyasət sahəsindəki fəaliyyətində tətbiq edilir. Lakin onları məqsədyönlü və səmərəli tətbiq etmək üçün səriştəli kadrların olması çox vacibdir (9, s. 328).

Müasir elmi-siyasi fikirdə geosiyasi gücün müxtəlif faktorlarının nisbi mümkünlüyünün obyektiv ölçülməsi çox mürəkkəb məsələ hesab edilir. Belə ki, rusiyalı müəlliflərdən Y.P.Davıdova görə, dövlətin təbii sərvətlərinə istinad edərək onun güclü olub-olmamasını demək olar. Digər tərəfdən dövlətin gücünün müxtəlif elementləri bir-biri ilə bağlıdır və bir elementin əhəmiyyətini ölçmək üçün hökmən onunla bağlı olan digər elementi nəzərdən keçirmək vacibdir.

Belə ki, əgər müəyyən dövlətin iqtisadi inkişaf səviyyəsi yüksək deyilsə, onda onun münbit təbii sərvətləri onun güclü dövlət olmasına səbəb olmayacaqdır (7, s. 111-112) ki, müasir amerikan siyasətşünaslığı məhz bu amildən çıxış edərək "siyasi -cırtdan, lakin iqtisadi - nəhəng olan" Yaponiyanı dünya dövləti kimi təqdim edir, halbuki Çinə, Rusiyaya və ya Hindistana belə münasibət sərgilənmir (11, s. 687).

Ümumiyyətlə, müxtəlif tədqiqatların öyrənilməsi və analizi, habelə beynəlxalq təcrübə göstərir ki, gücün elementlərinin hər biri, istər beynəlxalq aləmdə, istərsə də ölkənin daxilində dövlətin nüfuzunun artmasına səbəb olur. Müasir elmi-nəzəri baxışlara görə dörd metod vasitəsilə bu və ya digər dövlət başqa dövlətlərin fəaliyyətinə təsir göstərir: inandırma, şirnikləndirmə, cəzalandırma və məcburetmə. Əgər geosiyasi güc başqa dövlətlərin fəaliyyətinə nəzarət etmək qabiliyyətlidirsə, onda göstərilən metodlar gücdən istifadə etmək vasitələridir ki, bu vasitələrin köməyi ilə güclü dövlətlər bir-birləri ilə rəqabət apara bilir və ya güçlü dövlət, İraqın və ya Əfqanıstanın timsalında olduğu kimi, öz iradəsini zor tətbiq etməklə digər dövlətə qəbul etdirə bilir.

Qeyd etmək lazımdır ki, müasir və klassik diplomatiya ilk növbədə inandırma metoduna əsaslanır, bu, geosiyasi gücdən istifadə edilmənin ən asan metodudur. Diplomatiyanın gücü səmərəli inandırma vasitəsilə başqa dövlətin fəaliyyətinə təsir göstərməklə ölçülür. Şirnikləndirmə metodu isə başqa dövlətlərə müəyyən vədlərin verilməsi ilə həyata keçirilir. Vədlər müxtəlif formada: maddi, iqtisadi və siyasi formada olurlar. Praktikada bu metodun bariz nümunəsini İngiltətə, Fransa və ABŞ-ın birləşərək alman faşistlərinin təcavüzünü Şərqə doğru – SSRİ-yə qarşı yönəltməsində görmək olar. Bu dövlətlər faşist Almaniyasının təcavüzkarlığına münasibətdə əvvəlcə qarışmamaq, sonra isə sakitləşdirmək siyasəti yeritmişdilər (5, 127-129). Almaniyanın həddindən artıq güclənməsini gördükdə isə onu SSRİ-yə qarşı şirnikləndirməyə başladılar, halbuki şirnikləndirmə yox, cəzalandırma siyasətinə keçilməsi daha düzgün olardı.

Beynəlxalq münasibətlərdə cəzalandırma, məcburetmə və təcridetmə məntiqi baxımdan biri digərinin davamıdır. Bu üsullar hədəf seçilmiş dövləti müəyyən fəaliyyətdən çəkindirmək məqsədini güdür. Lakin cəza tədbirlərinin həyata keçirilməsi artıq məcburetmə metodundan istifadə edilməsi deməkdir, bununla belə, hər bir dövlət bu metodların hamısından başqa bir dövlətə qarşı istifadə etməyə qadir deyildir. Belə ki, inkişaf etməkdə olan ölkələr inkişaf etmiş ölkələrə münasibətdə cəzalandırma və ya məcburetmə metodlarından istifadə edə bilmirlər. Onlar inkişaf etmiş ölkələrin fəaliyyətinə təsir etmək üçün, adətən, inandırma və ya şirnikləndirmə metodlarına əl atırlar. Bundan başqa, metodların seçilməsi güc vasitəsilə nail oluna biləcək məqsədlərdən asılıdır, yəni inandırma metodundan istifadə etməklə, adətən, qarşı dövlətin siyasətində kiçik dəyişikliklərə nail olmaq mümkündür ki, bunu kompromis kimi də səciyyələndirirlər. Geosiyasi müstəvidə belə yanaşma bir qayda olaraq ABŞ və ya Rusiya kimi dövlətlərin gücünün göstəricisidir.

Müasir beynəlxalq hüquq normaları gücdən istifadə edilməsini inkar edir ki, bu da həm BMT Nizamnaməsində, həm də ATƏT-in Helsinki Yekun Aktının Bəyannamə prinsiplərinin 1-ci maddəsində öz əksini tapmışdır. Halbuki son iki onilliyin hadisələrinə diqqət yetirsək, bunun əksini görərik. ABŞ-ın faktiki olaraq fiziki güc tətbiq edərək İraqı işğal etməsi regionda geosiyasi vəziyyətin ciddi şəkildə dəyişməsinə gətirib çıxarmışdır. Deməli, fiziki güc tətbiq etməklə bir dövlət başqa bir dövlətin fəaliyyətini dəyişməyə nail olur, fiziki gücdən istifadə edilməsinin ən son forması müharibədir. Hər bir dövlət öz imkanı daxilində gücdən istifadə edilmə metodları vasitəsilə başqa bir dövlətin fəaliyyətində istədiyi dəyişikliklərə nail olmağa calışır ki, bu da öz əksini geosiyasi vəziyyətin dəyişməsində təzahür etdirir. ABŞ-ın bu işdə "müvəffəqiyyəti" onun gücündən asılıdır, onun güclü, güvvətli olması başqa bir dövlətin və ya dövlətlərin fəaliyyətinə təsir etmək imkanını artırır. Qeyd edək ki, İraqın sıradan çıxarılması regionda geosiyasi güc kimi İran və Türkiyənin mövqelərini olduqca gücləndirdi (4).

Digər tərəfdən dövlətin güclü, qüvvətli olması onun fəaliyyətinə başqa dövlətlərin müdaxiləsinin qarşısını alır. Təsadüfi deyil ki, dövlətlərarası münasibətlərdə gücün, qüvvənin mühüm bir amil olmasını nəzərə alan dövlətlər öz potensiallarını artırmağa can atırlar ki, bu da öz əksini ilk növbədə onların hərbi potensiallarının artırılmasında tapır. Belə ki, hərbi yolla başqa bir dövlətə və ya dövlətlərə təsir etmək ən səmərəli metoddur, çünki söhbət fiziki gücün artırılmasından gedir. Hərbi sahədə rəqabətə yalnız inkişaf etmiş ölkələr qoşulmaq iqtidarındadırlar. Belə ki, hərbi potensialın inkişafını təmin etmək üçün dövlətin ilk növbədə güclü iqtisadiyyatı olmalıdır, əks halda o, ciddi problemlərlə üzləşə bilər. Məhz güclü iqtisadiyyata malik olan ölkələr arasında hərbi sahədə rəqabət gedir. Rəqabətdə olan tərəflərin hər biri çalışır ki, onun rəqibi hərbi sahədə ondan üstün olmasın, ən azı, onların səviyyələri bərabər olsun. Nəticədə, tərəflər arasında tarazlıq, balans yaranır. Bu balansın dövlətlərarası münasibətlərdə böyük əhəmiyyəti vardır. O, rəqabətdə olan hər bir tərəfi sonsuz və təhlükəli rəqabətdən əl çəkməyə vadar edir(6,s.174). Müharibə vəziyyətində olan Azərbaycan və Ermənistanın timsalında həm qüvvələr balansını, həm də təhlükəsizliyin bölünməsini əyani şəkildə müşahidə etmək olar. Diqqət yetirsək, Cənubi Qafqazda yaranmış geosiyasi balansa böyük dövlətlər müdaxilə etmək istəmirlər ki, bu da regional münaqişələrin dondurulmasında mühüm rol oynayır, baxmayaraq ki, faktiki tarazlıq kifayət qədər davamsızdır.

Mövcud elmi-nəzəri fikrə görə, qüvvələr balansı müharibə təhlükəsinin qarşısının alınmasında başlıca rol oynayır. H.Morgentaunun fikrincə, sülhü yaxşı diplomatiya və beynəlxalq hüquq, beynəlxalq mənəviyyat və dünya ictimai rəyinin normativ məhdudlaşdırılması ilə bərabər qüvvələrin balansı vasitəsilə də saxlamaq mümkündür. Realistlər qüvvələr balansını "beynəlxalq münasibətlərin əsas prinsipi", "siyasətin fundamental qanunu" adlandırırlar (14, s. 233-234). Nəzərə almaq lazımdır ki, qüvvələr balansı ilk növbədə geosiyasi tarazlığı saxlamaq şərti ilə dünya siyasətində mütərəqqi rol oynayır. Məhz buna görə də realist nəzəriyyənin tərəfdarları qüvvələr balansını müdafiə edirlər, çünki dünyada etik prinsiplərin yayılması vasitəsilə sülhü qorumaq mümkün deyil, deməli, qüvvələrin balansı vasitəsilə sülhün qorunmasına nail olmaq olar. Qüvvələrin balansı nəzəriyyəsinə əsasən, müxtəlif gücə malik olan çoxlu dövlətlərin olduğu və hər birinin öz gücünü artırmağa can atdığı situasiyada bütöv sistem balansda olur ki, dünya siyasətindən buna çoxlu nümunələr göstərmək mümkündür. Qüvvələrin balansı vasitəsilə sülhü qoruyub saxlamaq və kiçik dövlətlərin müstəqilliyini əldə etmək mümkün olur. Nəzəri-praktiki baxımdan iki növ balans ayrılır:

- birincisi, təxminən eyni gücə malik olan iki dövlət arasında mövcud olan sadə balans;
- ikincisi, bir çox dövlətlər arasında mövcud olan bir neçə dəfəlik balans.

H.Morgentauya görə böhran zamanı yalnız sadə balans üstünlük təşkil edir, çünki hakimiyyət uğrunda əsas mübarizə baş verdikdə, bütün dövlətlər bu və ya digər tərəfi dəstəkləməyə çalışırlar (16, s. 349). Qərb nəzəri fikrinin digər nümayəndələrindən K.Vrayta görə qüvvələrin balansının təzahür formaları rəngarəngdir. Əgər demokratik dövlət güc üstünlüyünə malikdirsə, o zaman o, başqa dövlətə təcavüz etməyəcəkdir və ya dövlət başçıları xarici siyasətə dair qərarlarını gücü nəzərə almaq əsasında müəyyən edəcək (12, s. 233) və s. Məhz bu zaman hərbi potensialın artırılması gündəmə gəlir, çünki dövlətlərarası münasibətlərdə müharibə həlledici rol oynayır. Bu məsələdə rəqib hesab edilən dövlətin mümkün qədər daha çox ərazisini işğal etməklə geosiyasi tarazlığın dəyişdirilməsinin əhəmiyyəti böyükdür ki, Ermənistan Rusiyanın dəstəyi ilə bu metodu reallaşdırmışdır. Bu metoddan istifadə ediləndə isə işğala məruz qalan dövlət öz gücünü rəqib dövlətin gücünə çatanadək artırır (10, s. 67-68).

Tarixən və müasir dövrdə geosiyasi güc öz ətrafında təhlükəsizlik zolağının yaradılmasına çalışır. Belə ki, XVI əsrdən etibarən Fransa öz ətrafında zəif bufer dövlət yaratmağın qayğısına qalmış və alman knyazlıqları olan Baden, Hessen, Bavariya və Vürtenburqdan ibarət (bunlar alman olsalar da, katolik olduqları üçün Fransaya yaxın idilər) bufer dövlətlərlə əhatə olunmuşdu

ki, bununla da Prussiya ilə ümumi sərhədlər aradan qaldırılmışdı (1, s. 286). Birinci və İkinci Dünya müharibələri ərəfəsində Polşa Rusiya və Almaniya arasında bufer dövlətə çevrilmişdi. Təsadüfi deyildi ki, müharibə öncəsi Polşa bufer dövlət kimi iki rəqib dövlət arasında bərabər bölünmüşdü. Bununla da bufer dövlət kimi, Polşanın əhəmiyyəti minimuma endirilmişdi. Fransa üçün Almaniyanın, SSRİ üçün Koreyanın bölünməsi soyuq müharibə dövründə ikiqütblü qüvvələrin balansı sisteminin əyani təzahürü idi. Beynəlxalq münasibətlərin inkişaf tarixi göstərir ki, qüvvələr balansı dövlətlər arasında hərbi sahədə rəqabətin nəticəsində yaranır və geosiyasi mahiyyət daşıyır. Deməli, qüvvələr balansı beynəlxalq cəmiyyətin xeyrinə xidmət edən, təbii obyektiv qanun şəklində baş verən bir hadisə olub, dövlətlərin xarici siyasət fəaliyyətinin məqsədlərindən biridir (12, 234-235).

Müasir dövrdə Cənubi Qafqazın timsalında qüvvələr balansı regionda geosiyasi maraqların tarazlığının saxlanılmasına xidmət edir. Ümummilli lider Heydər Əliyevin "neft və kommunikasiya" diplomatiyası regionda geosiyasi tarazlığın saxlanılmasına hesablanmışdı. Rusiyalı müəlliflər təsadüfi olaraq demirdilər ki, Azərbaycanın xarici siyasəti Türkiyə və Gürcüstanla birlikdə "anti-Rusiya koalisiyasının" yaradılmasına yönəldilmişdir. Bu mənada dövlətlər istəklərinə uyğun şəkildə bir koalisiyadan başqasına asanlıqla və sərbəst keçə bilərlər. Güclü dövlət də (tarazlayıcı rolunu oynayan) balansı bərpa etmək üçün zəif tərəfə qoşulur, amma iqtisadi faktorın nəzərə alınması şərtilə. Dövlətlər belə asanlıqla bir tərəfdən başqa tərəfə keçə bilməzlər. Onlar yalnız nadir hallarda belə edirlər (8, 742). Qüvvələr balansının üstünlüyü ondadır ki, o sülhün möhkəmləndirilməsinə xidmət edir, çünki əgər güc dövlətlər arasında bərabər paylaşdırılarsa, onda bu və ya digər dövlət başqa bir dövlətə təcavüz etdikdə müvəffəqiyyət qazana bilməz (14, s. 80-81).

Geosiyasi baxımdan qüvvələr balansı sistemindən keçmişdə sülhün saxlanılması üçün bir mexanizm kimi də çox səmərəli istifadə olunurdu. Belə ki, 1815-1914-cü illərdə (I Napoleon müharibələrinin sonu və Birinci Dünya müharibəsinin başlanması) qüvvələr balansı sülhün qorunmasında çox böyük rol oynayırdı. I Napoleonla I Aleksandr 1807-ci il Tilzit sülhünə əsasən Avropanın qərbini və şərqini bölmüşdülər. 1815-ci ildən sonra İngiltərə və Rusiya yeganə ən güclü dövlət kimi meydana çıxmışdılar. XIX əsrin ikinci yarısında Almaniyanın birləşməsi və onun sənayeləşdirilməsi Avropada gücün paylaşdırılmasını dəyişdi. Güc məfhumu milli maraq məfhumu ilə sıx bağlıdır. Milli maraq məfhumu BMN fənninin əsas kateqoriyalarından biridir. Beynəlxalq münasibətlərlər sistemi dövlətlərin milli maraqlar uğrunda mübarizəsi ilə xarakterizə olunur. Milli maraq məfhumu millətin meydana gəlməsi və onun maraqlarının dövlətin maraqları ilə eyniləşdirilməsi ilə bağlıdır.

Ümumiyyətlə, müasir dövrdə dünyada baş verən hadisələr geosiyasi maraqların təmin edilməsinə yönəlmişdir və bununla bağlı sülhün qorunması, təhlükəsizliyin təmin edilməsi probleminin əhəmiyyəti artaraq ökələrin milli maraqlarının əsas məqsədlərindən biri kimi özünü büruzə verir. Hər bir dövlət öz təhlükəsizliyini təmin etmək məqsədilə hərbi gücünün artmasının qeydinə qalır. Bu isə öz növbəsində başqa dövlətlər tərəfindən onların təhlükəsizliyinə qarşı yönələn təhlükə kimi qarşılanır və öz təhlükəsizliyini mökəmlətmək istəyən dövlət təcavüzkar dövlət kimi qələmə verilir. Yaranmış dilemmadan çıxmaq üçün öz təhlükəsizliyini təmin etmək istəyən dövlət başqa dövlətləri inandırmalıdır ki, onun həyata keçirdiyi tədbirlərdə heç bir təhlükə yoxdur və bu, geosiyasi tarazlığın pozulmasına qarşı yönəldilməmişdir.

**Açar sözlər:** *beynəlxalq münasibətlər, geosiyasi sistem, gücün elementləri, dövlətin gücü, geosiyasi güc, fiziki güc, hərbi güc, qüvvələr balansı, neft və kommunikasiya diplomatiyası.*

**İstifadə olunmuş ədəbiyyat**


1. Abbasbəyli A.N., Yusifzadə S.Z. Beynəlxalq münasibətlər tarixi (ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər). Dərslik. B.: BDU nəşriyyatı, 2009.
2. Quliyeva G.M. Azərbaycan yeni geosiyasi münasibətlər sistemində. B.: “Bakı” nəşriyyatı, 2011.
3. Аббасбейли А.Н., Бабазаде М.В. История международных отношений. 1918-1945. Б.: изд БГУ, 2014.
4. Гаджизаде А. Южный Кавказ - зона интересов США // Независимая газета, 2011, 26 июня
5. Галкин А.А. Германский фашизм. М.: Наука, 1989.
6. Геополитика: Учебно-методический курс / Под ред. проф. Тургаева А.С. 2-е изд. СПб.: СЗАГС, 2007.
7. Давыдов Ю. П. Норма против силы. М: Гардарики, 2003.
8. Дугин А.Г. Основы геополитики. Геополитическое будущее России. Мыслить пространством. М.: АРКТОГЕЯ, 2000.
9. Колосов В., Мироненко Н. Геополитика и политическая география. М.: Аспект-Пресс, 2005.
10. Лебедева М.М. Вестфальская модель мира и особенности конфликтов на рубеже XXI века / Космополис 1999.
11. Современные международные отношения и мировая политика. Учебник / Под ред. А.В.Торкунова. М.: Просвещение, 2004.
12. Теория международных отношений: Хрестоматия / Под ред. и с комментариями П.А.Цыганкова. М.: Гардарики, 2002.
13. Doyle M.W. Ways of War and Peace: Realism, Liberalism, and Socialism. N.Y., 1997.
14. Fearon J. Rationalist Explanations for war //International Organization 49, n.3 (Summer), 1995.
15. Levy J. The Causes of War and the Conditions of Peace //Annual Review of Political Science. Vol. 1, 1998.
16. Morgenthau H. A Realist Theory of International Relations and “Political Power.//Essential Readings in World politics (ed. Karen Mingst and Jack Snyder). New York, 2001.
17. Morgenthau H. The Balance of Power. Different Methods of the Balance of Power. and Evaluation of the Balance of Power //Politics among Nations: The Struggle for Power and Peace//Essential Readings in World politics (ed. Karen Mingst and Jack Snyder). New York, 2001.


**Гюльгюн ГУЛИЕВА**

## ФАКТОР СИЛЫ В СОВРЕМЕННОЙ ГЕОПОЛИТИЧЕСКОЙ СИСТЕМЕ: НАУЧНО-ПОЛИТИЧЕСКИЙ АНАЛИЗ

**Резюме**

Среди факторов, влияющих на геополитическую систему в современных международных отношениях, фактор силы имеет исключительное значение и определяет баланс мирового порядка. Сила интерпретируется как способность более сильного государства контролировать деятельность других государств. После развала двухполюсного мирового порядка в начале XXI века Россия стала выступать в мировой политике

альтернативой США. В настоящее время наблюдается тенденция к двухпонеюсному миропорядку.

Далее в статье рассматриваются вопросы силы государства и ее влияние на геополитическую систему на основе достижений исследований современной теории международных отношений. Автор делает обобщения, основанные на реалиях современного мира и раскрывает механизм влияния геополитической силы на мировую политику.

**Ключевые слова**: *международные отношения, геополитическая система, элементы власти, власть государства, геополитическая сила, физическая мощь, военная мощь, баланс сил, нефтяная и коммуникационная дипломатия.*

**Gulgun GULIYEVA**

## FAKTOR OF POVER IN MODERN GEOPOLITICAL SYSTEM: SCIENTIFIC AND POLITICAL ANALYSIS

### Resume

Among the factors influencing the geopolitical system in modern international relations, the factor one of power is of exclusive importanse and it determines the balance of world order. Power is interpreted as an ability of more powerful state to control over of other states activity. In the beginning of the XXI st century after breakdown of two-poled world order Russia came out an alternative of the USA in world policy.At the present the world order returns again to two-poled one domination. Further, in the article there were considered the issues of states power and its influence on geopolitical system on the basis of the achicvements of the researches on modern theory of international relations.

The author made generalizations grounded on the realities of the modern world and brings to light the mechanizm of the influence of a geopolitical power on world politics.

**Keywords**: *international relations, geopolitical system, elements of the state, domination of state, geopolitical power, physical strength, military power, balance, oil and communal diplomacy.*